DOI: https://doi.org/10.36719/2789-6919/48/55-59

**Anar Cavadov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
hüquq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-0929-6310
vekil_anar@mail.ru

# Cinayət qanununda yaş məsuliyyətin meyarı kimi

## Xülasə

Cinayətin subyekti qismində qanunla müəyyən edilmiş yaş həddinə çatmış anlaqlı fiziki şəxs çıxış edir. Bu subyekti səciyyələndirən əlamət kimi yaş təkcə hüquqi deyil, sosial, psixoloji və s. aspektlərdən də mühüm əhəmiyyət daşımaqla, hüquqi müəyyənlik prinsipi baxımından ilk növbədə aşağı sərhədlərin təyin olunmasını tələb edir. Həmçinin, müşahidə olunan meyil kimi yetkinlik yaşına çatmayanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsində artım çıxış edir ki, bu axının qarşısını almaq üçün cinayətkar davranışın kriminoloji cəhətlərini araşdırmaq zəruri hal alır. Mövcud yanaşmaların bir hissəsi aşağı yaş hüdudları müəyyən edilən zaman cinayətlərin ağırlıq dərəcəsini nəzərə alarkən, digər qismi isə yetkinlik yaşına çatmamış şəxslərin belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətinə malik olması məqamına yönəlir. Bu məqalədə biz yetkinlik yaşına çatmayanlara cəmiyyətin xüsusi bir təbəqəsi kimi qiymət verərək, yaş meyarını qanunvericiliyin nəzəri-praktiki vəziyyəti və diferensial cəzalar kontekstindən təhlil edəcəyik. Buradakı başlıca məqsədimiz bəhsi gedən məsələyə dair baxış bucağını genişləndirməklə, toplumda adekvat yanaşma formalaşdırmaq və gündəmdə olan bu cür hüquqi problemlərin həllinə töhfə verməkdir.

***Açar sözlər:*** *yetkinlik yaşına çatmayanlar, cinayətkar fəaliyyət, statistika, minimal yaş, psixologiya, məsuliyyət, qanunvericilik*

**Anar Javadov**
Shamakhi branch of
Azerbaijan State Pedagogical University
PhD in Law
https://orcid.org/0009-0007-0929-6310
vekil_anar@mail.ru

# Age as a Criterion of Responsibility in Criminal Law

## Abstract

The subject of the crime is a sane individual who has reached the age established by law. Age, as a characteristic of this subject, has significant importance not only from a legal perspective, but also from a social, psychological and other aspects, also in terms of the principle of legal certainty, it requires the determination of lower limits. As well, one of the observed trends is an increase of socially dangerous acts committed by minors, so preventing these things it is necessary to investigate the criminological aspects of criminal behavior. Some existing approaches take into account the severity of crimes when setting lower age limits, but others focuse the fact that minors have the capacity to understand the criminal nature of such acts. İn this article I will appreciate minors as a special segment of society, I'll analyze the theoretical-practical state of legislation and differential penalties. My main goal here is to broaden the perspective on the noted issue, form an adequate approach in society and contribute to the solution of such legal problems on the mainstream.

***Keywords:*** *minors, criminal activity, statistics, minimum age, psychology, responsibility, legislation*

## Giriş

Son illərin cinayət statistikası yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin, habelə cinayətkar fəaliyyətə cəlb olunmuş bu kateqoriyalı şəxslərin sayında müəyyən artım meyillərinin müşahidə olunduğunu göstərir. Yetkinlik yaşına çatmayanlar və onların iştirakı ilə törədilən cinayətlərin əhəmiyyətli hissəsinin tamah və tamah-zorakı xarakterli kriminal əməllər olduğu, bu şəxslər tərəfindən qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma kimi zorakı cinayətlər də törədildiyi, onların narkotiklərin qanunsuz dövriyyəsinə cəlb olunma hallarının artdığı da qeyd olunmalıdır.

**Tədqiqat**

Son illərin rəsmi cinayət statistikasına nəzər salsaq, 2019-cu ildə Azərbaycanda qeydə alınmış 26672 cinayətdən 323-nün 14-17 yaşda olan uşaqlar tərəfindən və ya onların iştirakı ilə törədildiyini deyə bilərik. Qeyd edək ki, bu ildə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin 185-i oğurluq, 18-i qəsdən sağlamlığa ağır zərər vurma, 12-si xuliqanlıq, 12-si narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, 4-ü qəsdən adam öldürmə və adam öldürməyə cəhdlə bağlı olmuşdur. 2019-cu ildə cinayət törətmiş 14-17 yaşda olan uşaqların sayı 387 olmuş (cinayət törətmiş şəxslərin ümumi sayında xüsusi çəkisi 2.2%), onlardan 95-i 14-15 (24,5%), 292-i isə (75,5%) 16-17 yaşda olan uşaqlar təşkil etmişdir. Yetkinlik yaşına çatmayanların 225-i (58,1%) kriminal əməlləri qrup şəklində törətmişlər. Statistik təhlil 2023-cü ildə Azərbaycanda qeydə alınmış 36811 cinayətdən 364-nün 14-17 yaşda olan uşaqlar tərəfindən və ya onların iştirakı ilə törədildiyini göstərir. Bu ildə yeniyetmələr tərəfindən törədilən cinayətlərin 164-ü oğurluq, 22-si dələduzluq, 17-si xuliqanlıq, 16-sı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, 15-i qəsdən sağlamlığa ağır zərər vurma, 8-i qəsdən adam öldürmə və adam öldürməyə cəhdlə bağlı olmuşdur. 2023-cü ildə cinayət törətmiş 494 yeniyetmədən 107-i (21,6%) 14-15, 387-si (78,4%) isə 16-17 yaşda olan şəxslər təşkil etmişdir. Yeniyetmələrin 80-ni (16,2%) cinayəti qrup şəklində törətmişlər.

Statistika həmçinin, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin sayının artması ilə yanaşı, bu cinayətlərin ictimai təhlükəlilik dərəcəsinin yüksəldiyini, bu kateqoriyalı kriminal əməllər arasında ağır və xüsusilə ağır cinayətlərin sayının və xüsusi çəkisinin artdığını göstərir. Belə ki, 2019-cu ildə bu kateqoriyalı şəxslər tərəfindən törədilən 323 cinayətdən 32-i (9,9%) ağır və xüsusilə ağır cinayət olduğu halda, 2023-cü ildə qeydə alınmış 364 cinayətdən 46-sı (12,6%) ağır və xüsusilə ağır cinayət olmuşdur. Göründüyü kimi, 2019-cu illə müqayisədə yeniyetmələr tərəfindən törədilən cinayətlərin strukturunda ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisi xeyli artmışdır.

Professor Ş.T.Səmədova bu məsələyə toxunaraq qeyd edir ki, "yetkinlik yaşına çatmayanların cinayətkarlığının dinamikası son illərdə cinayət məsuliyyətinə cəlb olunmuş bu kateqoriyalı şəxslərin sayının nisbi sabitliyini göstərir: bütün qeydə alınmış cinayətlərin orta hesabla 3%-ə qədəri yetkinlik yaşına çatmayanlar tərəfindən törədilir". Müəllif, yeniyetmələr tərəfindən törədilən cinayətlərin böyük hissəsinin tamah-zorakı istiqamətliliklə səciyyələndiyini, bu növ cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərində narahatlıq doğurucu hallardan birinin də yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin strukturunda ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisinin yüksək olduğunu (13%-ə yaxın) göstərir (Samedova, 2022, s. 46).

M.N.İmanlı qeyd edir ki, "baş vermiş cinayətlərin xeyli qismi yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilir. Bu cinayətlər baş vermə hallarına görə subyektin, yəni yetkinlik yaşına çatmayan şəxsin psixoloji vəziyyətindən, törədilmiş əmələ olan münasibətindən və sair mühüm amillərdən asılı olmaqla fərqli xüsusiyyətlərə malik olduğundan xüsusi növə ayrılır. Bu qrup cinayətlərin baş vermə səbəblərini, hallarını, xüsusiyyətlərini araşdırarkən, həmin cinayətlərin məhz yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilməsini qanunvericilik daha üstün tutaraq bu növ cinayətləri ayırır və cəza məsələsində xüsusilə fərqli mövqedən yanaşır" (İmanlı, 2019, s. 52).

Məlum olduğu kimi, Azərbaycan Respublikası cinayət qanunvericiliyində şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün yaş həddi 16 yaş olaraq müəyyən edilmişdir. Cinayət məsuliyyətinin yaranması üçün müəyyən edilən yaş həddi, təkcə sosial-psixoloji və pedaqoji problem olmayaraq, həm də cinayət hüquq siyasəti ilə bağlı məsələdir. A.A.Baybarin qeyd edir ki, yaş – mürəkkəb,

geniş həcmli və çoxaspektli anlayışdır və təsadüfi deyildir ki, yaşla bağlı ayrı-ayrı aspektlərin öränilməsi ilə tibb, pedaqogika, psixologiya, fəlsəfə, sosiologiya, cinayət hüququ və kriminologiya kimi elmlər məşğul olur (Baibarin, 2009, s.3).

AR CM-in 20.1-ci maddəsinə uyğun olaraq cinayətin subyekti üçün müəyyən edilən yaş həddi 16-dır. Eyni zamanda, CM-in 20.2-ci maddəsində, 14 yaşdan məsuliyyət yaranan əməllərin dəqiq dairəsi də göstərilmişdir. Belə ki, Azərbaycan Respublikası CM-in 20.1-ci maddəsinə uyğun olaraq cinayət törədənədək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. CM-in 20.2-ci maddəsində isə 14 yaşında cinayət məsuliyyətinin nəzərdə tutulduğu cinayətlərin dairəsi göstərilmişdir. Belə ki, bu maddəyə əsasən, 14 yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir. M.N.Bayramov qeyd edir ki, "subyekti 14 yaşdan nəzərdə tutulmuş cinayətlərin hamısı qəsdən törədilən cinayətlərdir. 14 yaş müəyyən edilərkən həmin cinayətlərin ağırlıq dərəcəsi deyil, məhz bu yaşda şəxslərin belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətinə malik olmaları nəzərə alınır" (Səməndərov, 2016, s.59). İ.Ağayev bununla bağlı yazır ki, "Cinayət Məcəlləsinin 20-ci maddəsinin 2-ci hissəsinə görə cinayət məsuliyyətinin yaranmasının azaldılmış minimum yaş həddi 14 yaş təşkil edir. Həmin yaş həddi kifayət qədər məhdud dairəyə mənsub cinayətlərlə bağlı təyin edilmişdir. Bu cinayətlərin dairəsi isə qanunverici tərəfindən bu normada göstərilmiş əməllərin ictimai təhlükəliliyinin 14 yaşına çatmış yeniyetmələrin inkişaf səviyyələrinə görə, onlara tam aydın olması nəzərə alınmaqla müəyyən edilmişdir" (Ağayev, 2010, s.175).

Hüquq elmləri doktoru, professor Ş.T.Səmədovanın düzgün olaraq qeyd etdiyi kimi, "qanunvericilik 14 yaşdan məsuliyyət yaradan əməllərini dairəsini müəyyən edərkən bu cinayətlərin ağırlığını deyil, onların daha çox məişət xarakterli olmalarını, habelə 14 yaşa çatmış şəxslərin belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətlərinə malik olmalarını nəzərə almışdır" (Səmədova, Bayramova, Rzayeva, Musayeva, Nəzərova, 2022, s.27).

Cinayət məsuliyyətinin yarandığı yaş hüdudlarının müəyyən edilməsi istənilən dövlətin cinayət siyasətinin mühüm istiqamətlərindən biridir. Belə ki, məhz yaşla insanların tələbatları, həyati məqsədləri, maraqlar dairəsi, həyat tərzi müəyyən olunur və təbii ki, yaş şəxsin qanunazidd hərəkətlərinə də təsirsiz ötüşmür. Əgər yetkin yaşda olan insan müasir şəraitlərdə öz qarşısına sosial vəzifələr qoya və onları uğurla həll edə bilirsə, yetkinlik yaşına çatmayan şəxslər, uşaq və yeniyetmələr, tam şəkildə öz tələbatlarına adekvat olan həyat şəraitlərini müstəqil yaratmaq, öz hərəkətlərinə cavab vermək və onları idarə etmək iqtidarında olmurlar. Uyğun olaraq istər cinayət-hüquqi müdafiənin həyata keçirilməsi, istərsə də müxtəlif yaş qruplarından olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə differensiallaşdırılmış yanaşma zəruridir.

Yaş anlayışı insanın inkişaf psixologiyasında ən mühüm kateqoriyalardan biridir. Yaş şəxsiyyətin bir çox xassə və keyfiyyətlərini, psixikasının xüsusiyyətlərini, tələbatlarını, maraqlarını, şəxsiyyətin sosial statusunu və digərlərini müəyyən edir.

Yaşdan asılı olaraq cinayət subyektinin differensiasiyasının müxtəlif aspektlərinin tam və hərtərəfli öyrənilməsi – təkcə hüquq nəzəriyyəsi üçün deyil, həm də hüquq təcrübəsi üçün əhəmiyyətlidir. Belə ki, qanunvericiliklə müəyyən olunmuş yaşa çatma – şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri olan şərtlərdən biridir (Gorbatenko, 2020, s.184).

Cinayət hüququnda yaşın differensiasiyası məsələləri şəxsiyyətin hüquqları probleminə də toxunur. Hüquqi aspektlərlə yanaşı, yaş həm də sosial əhəmiyyət kəsb edir: qanunvericinin cinayət qanunu ilə qadağan edilmiş ictimai təhlükəli əməlləri törətmiş yetkinlik yaşına çatmayan şəxslərə ədalətli, adekvat yanaşması təkcə hüquq doktrinası və hüquqtətbiqetmə təcrübəsi üçün deyil, həm də bütövlükdə cəmiyyətin humanistləşməsi vəzifələrinin həllinə kömək edir.

Yaşın cinayət-hüquqi aspektlərdən tədqiqinin aktuallığı bir sıra amillərlə, o cümlədən: qanun yaradıcılığında və hüquqtətbiqetmə təcrübəsində ardıcıl şəkildə ifadə olunan və təzahür edən cinayətkarlıqla mübarizənin forma və metodlarının humanistləşməsi meyilləri ilə; cinayət törədənin və zərərçəkənin şəxsiyyətinin xüsusiyyətləri nəzərə alınmaqla cinayət məsuliyyətinin və cəzanın differensiasiyası və fərdiləşdirilməsi, cəmiyyətdə mürəkkəb sosial-psixoloji ab-hava və bu fonda müşahidə olunan yetkinlik yaşına çatmayanların cinayətkarlığının səviyyəsinin yüksəlməsi, həmçinin cinayət məsuliyyəti yaşına çatmayan şəxslər tərəfindən törədilən ictimai təhlükəli əməllərin sayının artması və sairə ilə şərtlənmişdir (Baibarin, 2009, s.3-4).

Y.R.Mikayıllının düzgün olaraq qeyd etdiyi kimi, “müasir dövrdə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi, ibtidai araşdırma müddətləri, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsi, tutulması, həbsi, onlara tətbiq edilən digər qətimkan tədbirləri, cəzalar və cinayət-mühakimə icraatının digər elementləri ilə bağlı hüquq sistemləri və ölkələr üzrə fərqli yanaşmalar da mövcuddur” (Mikayıllı, 2024, s.75-76).

Müxtəlif ölkələrdə cinayət məsuliyyətinin minimal yaş hədləri ölkələrin tarixi və mədəni xüsusiyyətlərindən asılı olaraq bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Cinayət məsuliyyətinin minimal yaş həddinin müəyyən edilməsinə müasir yanaşma “uşağın cinayət məsuliyyəti ilə bağlı mənəvi və psixoloji məqamları keçirmək qabiliyyətinin, yəni yetkinlik yaşına çatmayanın fərdi xüsusiyyətləri və ya onların bunu qavramaq və başa düşmək imkanları nəzərə alınmaqla onun cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyünün qiymətləndirilməsi”ndən ibarətdir (Trunov, Aivar, 2005, s.29; Konovalova, 2013, s.121).

Elmi diskussiyalarda cinayətin subyekti kimi yetkinlik yaşına çatmayanların yaşının təyininə münasibətdə məhkəmə təcrübəsinin kolliziallığı xüsusi qeyd olunur. Elmi diskussiyaların, qüvvədə olan cinayət qanunvericiliyinin ziddiyyəti cinayət subyektinin faktiki və fiziki yaşının üst-üstə düşməməsi, cinayətlərin tövsifi, onların ictimai təhlükəlilik dərəcəsi kimi problemlərin aktuallaşmasına gətirib çıxarır (Jadan, 2018, s.345).

## Nəticə

Qeyd edək ki, “cinayət məsuliyyəti uşağın müəyyən yaşda olub-olmamasına görə deyil, yetkin olub-olmamasına görə qiymətləndirilirdi. 12 Lövhə Qanununun tətbiqində oğlanın 14 yaşında, qızların isə 12 yaşında yeniyetmə olduğu qəbul edilirdi. Bu qiymətləndirmə nəticəsində uşağın yetkin olmadığı qənaətinə gəlindiyi halda, əməli ölüm cəzası tələb edəcək qədər ağır olsa belə, uşağı cəzalandırmamaq, xəbərdarlıq etmək və vurduğu zərərin iki qatını ödəmək kimi sanksiyalar tətbiq edilirdi. Roma hüququnun klassik hüququ adlanan dövrdə uşağın danışa bildiyi dövrə qədər olan yaşı mütləq məsuliyyətsizlik dövrü kimi qəbul edilmiş, yeniyetmə olan, lakin yaşı tamam olmamış dövrə yaxın olan uşaqlara verilən cəzalar isə mərhəmət kimi səbəblərdən ola bildikcə aşağı həddən verilmişdir” (Əzizov, 2023, s.96).

## Ədəbiyyat

1. *Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası*. (2016). F.Y.Səməndərovun redaktəsi ilə.
2. Ağayev, İ.B. (2010). *Azərbaycan Respublikasının Cinayət hüququ (Ümumi və Xüsusi hissələr).* Dərslik.
3. Baibarin, A.A. (2009). *Ugolovno-pravovaya differentsiatsiya vozrasta*. Avtoref.diss…k.yu.n.
4. Baibarin, A.A. (2009). *Ugolovno-pravovaya differentsiatsiya vozrasta*. Avtoref.diss…k.yu.n.
5. Əzizov, Ş. (2023). Türk hüququnda yetkinlik yaşına çatmayan şəxslərə təyin edilən cəza növləri. *“Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik problemləri” mövzusunda 17 aprel 2023-cü il tarixdə Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında keçirilmiş beynəlxalq elmi-praktik konfransın materialları*.
6. İmanlı, M.N. (2019). Yetkinlik yaşına çatmayanlar və ailə münasibəti zəminində olan cinayətlər. *Qanun*, 5(295).

7. Gorbatenko, G.V. (2020). Teoretiko-pravovye aspekty opredeleniya vozrasta kak priznaka subzhekta prestupleniya v otechestvennoi i zarubezhnykh sistemakh prava. *Vestnik Voronezhskogo instituta MVD Rossii*, 3.
8. Zhadan, V.N. (2018). Ugolovno-pravovye problemy vozrasta kak otlichitel'noi cherty nesovershennoletnikh, vystupayushchikh subzhektami prestuplenii. *Baltiiskii gumanitarnyi zhurnal*. Tyu.7, 1(22).
9. Konovalova, I.A. (2013). Mezhdunarodnye standarty v oblasti preduprezhdeniya pravonarushenii nesovershennoletnikh, ikh vnedrenie v Rossiiskoe zakonodatel'stvo. *Obrazovanie i pravo*. 1(41)-2(42).
10. Mikayıllı, Y.R. (2024). Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsi sahəsində bəzi problemlərə dair. *Qanun*, 3(353).
11. Səmədova, Ş.T., Bayramova, M.N., Rzayeva, S.N., Musayeva, A.T., Nəzərova, K.O. (2022). *Cinayət hüququ (dövlət imtahan suallarının şərhi)*. Dərs vəsaiti.
12. Samedova, SH.T. (2022). Ugolovno-pravovaya zashchita prav nesovershennoletnikh. *Bakı universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası*, 1.
13. Trunov, I.L., Aivar, L.K. (2005). Voprosy ugolovnogo prava i ugolovnoi politiki v otnoshenii nesovershennoletnikh. *Zhurnal Rossiiskogo prava*, 10.

Daxil oldu: 11.05.2025
Qəbul edildi: 16.08.2025